“Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə”nin və “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə”nin və “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 415; 2020, № 12 (I kitab), maddə 1473) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə” üzrə:

1.1. 1.2.1-ci yarımbəndə “demisezon gödəkcə” sözlərindən sonra “, yay gödəkcəsi, qış gödəkcəsi” sözləri əlavə edilsin;

1.2. 1.2.2-ci yarımbənddən “, kepi” sözü çıxarılsın;

1.3. 2.2.1-ci yarımbəndə “şlyapa” sözündən əvvəl “qalın parçadan” sözləri əlavə edilsin;

1.4. 2.3.1-ci yarımbəndə “şlyapa” sözündən əvvəl “nazik parçadan” sözləri əlavə edilsin;

1.5. 3.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.1.1. ali rəis heyəti üçün boz qaragül xəzdən tikilir. Günlüyü və qulaqlıqları tünd mavi rəngdədir. Günlüyünün üzərinə ali rəis heyəti üçün müəyyən edilmiş qızılı rəngdə naxış tikilir. İki sarı metaldan hazırlanmış, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan düymə ilə bərkidilən qızılı rəngli toxunma qaytanı və Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan kokardası vardır (şəkil 39);”;

1.6. 5.1-ci bənddə “kepi” sözü “yay papağı” sözləri ilə və “gödəkcə, hərbi nümunəli köynək” sözləri “qış gödəkcəsi, yay gödəkcəsi, qısaqol yay köynəyi” sözləri ilə əvəz edilsin;

1.7. 5.2 - 5.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“5.2. Yay papağı - açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş parçadan tikilir. Günlüyü (ali rəis heyəti üçün papaqda qızılı rəngdə naxış ilə) eyni parçadandır. Ön tərəfində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan kokardası vardır (şəkil 43-2, 48).

5.3. Qış papağı - açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş qalın parçadan tikilir. Günlüyü (ali rəis heyəti üçün papaqda qızılı rəngdə naxış ilə) və qatlanan yan tərəfləri açıq mavi rəngdədir. Ön tərəfində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan kokardası vardır (şəkil 43-1, 47).

5.4. Qış gödəkcəsi - açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş qalın parçadan tikilir. Qatlanan boyunluqludur (ali rəis heyəti üçün mavi rəngli), isti içliyi, iki düz yan, üstlüyü qatlanan və düymələnən iki döş cibləri, çiyinlərində poqonlar vardır. Sol qolunda (qadınlarda sağ qolunda) qol nişanının təsviri vardır (şəkil 9-1, 9-2, 36, 36-1).

5.5. Yay gödəkcəsi - açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş parçadan tikilir. Qatlanan boyunluqludur, iki düz yan, üstlüyü qatlanan və düymələnən iki döş cibləri, çiyinlərində poqonlar vardır. Sol qolunda (qadınlarda sağ qolunda) qol nişanının təsviri vardır (şəkil 9-3, 9-4, 37, 37-1).”;

1.8. aşağıdakı məzmunda 5.5-1-ci bənd əlavə edilsin:

“5.5-1. Qısaqol yay köynəyi - açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş parçadan tikilir. Qatlanan boyunluqludur, iki düz yan, üstlüyü qatlanan və düymələnən iki döş cibləri, çiyinlərində poqonlar vardır. Sol qolunda (qadınlarda sağ qolunda) qol nişanının təsviri vardır (şəkil 9-5, 9-6, 38, 38-1).”;

1.9. 5.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

“5.6. Mayka - qış üçün qalın, yay üçün nazik açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş parçadan tikilir.”;

1.10. 5.7-ci bənddə “tünd göy rəngli hərbi nümunəli” sözləri “açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş” sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri”nin 36, 37, 38, 39, 47, 48 nömrəli şəkilləri yeni təsvirdə verilsin və həmin təsvirlərə 9-1, 9-2, 9-3, 9-4, 9-5, 9-6, 36-1, 37-1, 38-1, 43-1 və 43-2 nömrəli şəkillər əlavə edilsin (əlavə olunur).

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 oktyabr 2021-ci il

Şəkil 9-1. Gömrük orqanlarının ali rəis heyəti kişi əməkdaşları üçün qış səhra geyim formasının təsviri

Şəkil 9-2. Gömrük orqanlarının ali rəis heyəti qadın əməkdaşları üçün qış səhra geyim formasının təsviri

Şəkil 9-3. Gömrük orqanlarının ali rəis heyəti kişi əməkdaşları üçün yay uzunqol səhra geyim formasının təsviri

Şəkil 9-4. Gömrük orqanlarının ali rəis heyəti qadın əməkdaşları üçün yay uzunqol səhra geyim formasının təsviri

Şəkil 9-5. Gömrük orqanlarının ali rəis heyəti kişi əməkdaşları üçün yay qısaqol səhra geyim formasının təsviri

Şəkil 9-6. Gömrük orqanlarının ali rəis heyəti qadın əməkdaşları üçün yay qısaqol səhra geyim formasının təsviri

Şəkil 36-1. Gömrük orqanlarının baş və orta rəis heyəti və kiçik heyəti qadın əməkdaşları üçün qış səhra geyim formasının təsviri

Şəkil 36. Gömrük orqanlarının baş və orta rəis heyəti və kiçik heyəti kişi əməkdaşları üçün qış səhra geyim formasının təsviri

Şəkil 37-1. Gömrük orqanlarının baş və orta rəis heyəti və kiçik heyəti qadın əməkdaşları üçün yay uzunqol səhra geyim formasının təsviri

Şəkil 37. Gömrük orqanlarının baş və orta rəis heyəti və kiçik heyəti kişi əməkdaşları üçün yay uzunqol səhra geyim formasının təsviri

Şəkil 38-1. Gömrük orqanlarının baş və orta rəis heyəti və kiçik heyəti qadın əməkdaşları üçün yay qısaqol səhra geyim formasının təsviri

Şəkil 38. Gömrük orqanlarının baş, orta rəis heyəti və kiçik heyəti kişi əməkdaşları üçün yay qısaqol səhra geyim formasının təsviri

Şəkil 39. Gömrük orqanlarının ali rəis heyəti üçün xəzli papağın təsviri

Şəkil 43-1. Gömrük orqanlarının ali rəis heyəti kişi və qadın əməkdaşları üçün səhra geyim formasının qış papağının təsviri

Şəkil 43-2. Gömrük orqanlarının ali rəis heyəti kişi və qadın əməkdaşları üçün səhra geyim formasının yay papağının təsviri

Şəkil 47. Gömrük orqanlarının baş və orta rəis heyəti və kiçik heyəti kişi və qadın əməkdaşları üçün səhra geyim formasının qış papağının təsviri

Şəkil 48. Gömrük orqanlarının baş və orta rəis heyəti və kiçik heyəti kişi və qadın əməkdaşları üçün səhra geyim formasının yay papağının təsviri

Azərbaycan.- 2021.- 31 oktyabr.- S.2.